AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 9 dekabr 2022-ci il tarixli 677-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir.**

BAKI 2023

# MÜNDƏRİCAT

İnvestisiya mühitinin və yerli istehsalın təşviqi ilə vergi yükünün azaldılması .................................... 3

Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması .................................. 13

Ləğv prosesində olan kredit təşkilatlarının sabit vergi xərclərinin azaldılması ...................................... 17

Beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması ........................................................ 19

İnzibatçılıq tədbirlərinin təkmilləşdirilməsi ......................... 23

## Vergi Məcəlləsinə edilmiş dəyişikliklər suallar və cavablarda

“Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 9 dekabr 2022-ci il tarixli 677-VIQD nömrəli Qanunu Azərbaycan Republikasının Prezidenti tərəfindən 30 dekabr 2022-ci ildə təsdiq edilib.

Qanunla Vergi Məcəlləsinə edilən növbəti əsaslı dəyişikliklər aşağıdakı 5 əsas istiqaməti əhatə edir:

- İnvestisiya mühitinin və yerli istehsalın təşviqi ilə vergi yükünün azaldılması;
- Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması;
- Ləğv prosesində olan kredit təşkilatlarının sabit vergi xərclərinin aşağı salınması;
- Beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması;
- İnzibatçılıq tədbirlərinin təkmilləşdirilməsi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin vergi ödəyiciləri tərəfindən daha ətraflı mənimsənilməsi üçün sual-cavab kitabçası hazırlanıb. Ümid edirik ki, bu sual-cavab kitabçası hamı üçün faydalı olacaqdır.

# 1 İnvestisiya mühitinin və yerli istehsalın təşviqi ilə vergi yükünün azaldılması

?

**1. Müəssisəmiz Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda əlil olmuş hərbi qulluqçuların müalicə və reabilitasiyası məqsədilə Səhiyyə Nazirliyinə əvəzsiz avtomobil ianə edib. Qeyd olunan əmlakın təqdim olunması vergiyə cəlb edilirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, hüquqi və fiziki şəxslər tərəfindən daşınar və daşınmaz əmlak, qeyri-maddi aktivlər, habelə əmlak kompleksi şəklində müəssisələr dövlət orqanlarına (qurumlarına), həmçinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verildikdə vergitutma məqsədləri üçün gəlir nəzərə alınmır və ƏDV tutulan əməliyyat sayılmır.
Buna əsasən, sorğuda qeyd olunan halda, müəssisə tərəfindən Səhiyyə Nazirliyinə avtomobilin əvəzsiz təqdim edilməsi mənfəət vergisinə və ƏDV-yə cəlb olunmur.

**Əsas:** Vergi Məcəlləsinin 144.1.4-cü və 160.4-cü maddələri.

?

**2. “X” QSC-nin kommersiya məqsədləri üçün əldə etdiyi “Niva” markalı avtomobilə görə “Xəzər-Lada” ASC-yə ödənilmiş ƏDV məbləği əvəzləşdirilib. Cəmiyyət həmin avtomobili hərbi məqsədlər üçün Müdafiə Nazirliyinə bağışlayıb. Bu zaman ödənilmiş ƏDV məbləği bərpa edilməlidirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, ƏDV məqsədləri üçün hüquqi və fiziki şəxslər tərəfindən daşınar və daşınmaz əmlakların, qeyri-maddi aktivlərin, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verilməsi vergi tutulan əməliyyat sayılmır.
Eyni zamanda, Vergi Məcəllənin 160.4-cü maddəsində göstərilən hal istisna olmaqla, ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.
Göründüyü kimi, Vergi Məcəlləsində 1 yanvar 2023-cü ildən edilmiş dəyişikliyə əsasən, ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparılan zaman ƏDV məbləğlərinin əvəzləşdirilməsinə məhdudiyyət tətbiq olunarkən Vergi Məcəlləsinin 160.4-cü maddəsində göstərilən hal istisna edilib.
Qeyd olunanlara əsasən, sorğuda göstərilən halda, Müdafiə Nazirliyinə avtonəqliyyat vasitəsinin əvəzsiz təqdim olunması zamanı həmin avtonəqliyyat vasitəsi alınarkən ödənilmiş və əvəzləşdirilmiş ƏDV məbləği yenidən hesablanmaqla dövlət büdcəsinə bərpa edilmir.

**Əsas:** Vergi Məcəlləsinin 160.4-cü və 175.6-cı maddələri.

?

**3. Mən Zəngilan rayonunda doğulmuşam. Fərdi sahibkar olaraq Zəngilan rayon Vergilər Şöbəsində qeydiyyatdayam, amma Bakı şəhərində pərakəndə satış fəaliyyəti ilə məşğulam. Bilmək istəyirəm, işğaldan azad olunmuş ərazilərlə bağlı 2023-cü ilin 1 yanvar tarixindən Vergi Məcəlləsinə əlavə edilmiş vergi güzəştlərindən istifadə edə bilərəmmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, Vergi Məcəlləsinin XIX fəslinin məqsədləri üçün işğaldan azad edilmiş ərazinin rezidenti dedikdə, işğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür və bu fəsildə nəzərdə tutulmuş vergi azadolmaları həmin şəxslərə tətbiq edilir.
Buna əsasən, işğaldan azad edilmiş ərazidə vergi uçotunda olmasına baxmayaraq, Bakı şəhərində fəaliyyət göstərən vergi ödəyiciləri işğaldan azad edilmiş ərazinin rezidenti sayılmır və həmin şəxslərə Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş vergi güzəştləri şamil edilmir.

**Əsas:** Vergi Məcəlləsinin 226.1-ci və 226.2-ci maddələri.

?

**4. Mən sığorta agenti kimi fəaliyyət göstərirəm. Fəaliyyətimi Şuşa şəhərində həyata keçirmək istəyirəm. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən vergi ödəyiciləri üçün Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlər mənə şamil olunacaqmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 13.2.14.7-ci maddəsinə əsasən, sığorta və təkrar sığorta əməliyyatları, habelə bu əməliyyatlarla bağlı sığorta agenti və sığorta brokeri xidmətləri maliyyə xidmətlərinə aiddir.
Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş 226.3.1-ci maddəsinin müddəalarına əsasən, bu Məcəllənin XIX fəslində müəyyən edilən işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan vergi azadolmaları maliyyə xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət göstərən şəxslərə şamil edilmir.
Qeyd olunanlara əsasən, sığorta agenti maliyyə xidmətlərinə aid olduğundan, bu fəaliyyətlə məşğul olan vergi ödəyicilərinə Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş vergi güzəştləri şamil edilmir.

**Əsas:** Vergi Məcəlləsinin 13.2.14.7-ci və 226.3.1-ci maddələri.

?

**5. Mən Cəbrayıl rayonunda fərdi sahibkar kimi tikinti materiallarının topdansatışı ilə məşğulam. Sabirabad rayonunda fəaliyyət göstərən vergi ödəyicisinə elektron qaimə-faktura təqdim edilməklə satdığım tikinti mallarına görə vergi azadolması tətbiq edilirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.

Həmin şəxslər malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim etdikləri, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac etdikləri halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir.

Buna əsasən, tərəfinizdən işğaldan azad edilmiş ərazilərdən kənarda fəaliyyət göstərən vergi ödəyicisinə təqdim edilən mallara görə vergi azadolması tətbiq olunmur.

**Əsas:** Vergi Məcəlləsinin 227.4.2-ci maddəsi.

**6. İşğaldan azad edilmiş ərazinin rezidenti olan müəssisəmiz Kəlbəcərdə ictimai iaşə xidmətləri göstərir. Vergi Məcəlləsinə görə, müəssisəmiz vergilərdən azaddır. Bu halda, müəssisə mənfəət vergisi bəyannaməsini təqdim etməlidirmi və bəyannamənin təqdim olunması ilə bağlı fərqli bir müddət müəyyən edilibmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, işğaldan azad edilmiş ərazinin rezidenti həmin ərazidəki fəaliyyəti ilə bağlı vergi hesabatlarını bu Məcəllədə nəzərdə tutulmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edir.

Belə ki, işğaldan azad edilmiş ərazinin rezidentləri üçün vergi hesabatlarının təqdim olunmasında fərqli qayda müəyyən edilməyib və həmin vergi ödəyiciləri vergi hesabatlarını bu Məcəllədə nəzərdə tutulmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edir.

Buna əsasən, müəssisəniz tərəfindən mənfəət vergisinin hesabatı hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

Əlavə olaraq bildiririk ki, Vergi Məcəlləsinin tələblərinə əsasən, vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə, habelə vergi güzəşti və azadolmalarını əldə edən şəxslər tərəfindən vergidən azad olunan gəlirlərin bəyan edilməməsinə və ya azaldılmasına maliyyə sanksiyalarının tətbiqi nəzərdə tutulur.

**Əsas:** Vergi Məcəlləsinin 57.1-ci, 58.15-ci, 149.2-ci və 229-cu maddələri.

### ? 7. Laçın şəhərində gündəlik tələbat məmulatlarının pərakəndə satışı fəaliyyəti göstərən işğaldan azad edilmiş ərazinin rezidenti "Dirçəliş" MMC-nin məzənnə fərqindən gəlirləri yaranıb. Bu gəlirlər də mənfəət vergisindən azaddırmı?

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, Vergi Məcəlləsinin 227-ci maddəsində nəzərdə tutulan vergi azadolmaları işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir.
Vergi Məcəlləsinin 13.2.12-ci maddəsinə əsasən, xarici valyuta əməliyyatları üzrə artan məzənnə fərqi satışdankənar gəlirlərə aiddir.
Qeyd olunanlara əsasən işğaldan azad edilmiş ərazinin rezidenti olan MMC-nin satışdankənar gəlirləri həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunmuşdursa, mənfəət vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsinin 227.5-ci maddələri.

### ? 8. Gədəbəy rayonunda kartof məhsulu istehsalı ilə məşğul olan hüquqi şəxsə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən dövlət büdcəsi vəsaiti hesabına ayrılan subsidiya məbləği mənfəət vergisinə cəlb edilirmi?

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti

hesabına verilən subsidiyalar, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 (bir) il müddətinə mənfəət vergisindən azaddır.
Qeyd olunanlara əsasən, dövlət büdcəsi vəsaiti hesabına kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxsə ayrılan subsidiya məbləği hüquqi şəxsin satışdankənar gəlirlərinə aid edilməklə mənfəət vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsinin 106.1.14-1-ci maddəsi.

**9. Pomidor istehsalı fəaliyyəti göstərən "Aqro-S" MMC-nin təsisçiləri olan fiziki və hüquqi şəxslərə ödənilən dividenddən 10 faiz vergi tutulmalıdırmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi və fiziki şəxslərin dividend gəlirləri 2023-cü il yanvarın 1-dən 1 (bir) il müddətinə mənfəət vergisindən azaddır.
Qeyd olunanlara əsasən, MMC-nin iştirakçıları olan fiziki və hüquqi şəxslərin dividend gəlirlərindən ödəmə mənbəyində vergi tutulmur.

**Əsas:** Vergi Məcəlləsinin 102.1.11-1-ci və 106.1.14-1-ci maddələri.

?

**10. Vergi Məcəlləsində edilmiş dəyişikliyə görə, idxal malını yerli istehsal olunmuş mal ilə əvəz edən məhsulların istehsalına münasibətdə güzəştlər nəzərdə tutulur. Müəssisəmiz makaron istehsalı ilə məşğuldur. Bizim müəssisə bu güzəştlərdən faydalana biləcəkmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən hüquqi və fiziki şəxslər müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 (yeddi) il müddətinə əldə etdikləri mənfəətin 50 (əlli) faizi mənfəət (gəlir) vergisindən, habelə həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisini, torpaqlara görə torpaq vergisini ödəməkdən azaddırlar.
Qeyd olunanlara əsasən, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən siyahı təsdiq edildikdən sonra həmin siyahıda makaron məhsulları nəzərdə tutulduğu halda, müəssisənizə müvafiq vergi güzəştləri tətbiq ediləcəkdir.

**Əsas:** Vergi Məcəlləsinin 102.1.37-ci, 106.1.31-ci 199.17-ci və 207.10-cu maddələri.

# 2 Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması

**11. Övladım Vətən müharibəsində şəhid olub. Hal-hazırda mən dövlət məktəbində müəllim işləyirəm. Bilmək istəyirəm ki, mənə münasibətdə hər hansı vergi güzəşti nəzərdə tutulubmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 800 manat məbləğində azaldılır.
Qeyd olunanlara əsasən, Sizin muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirinizə 800 manat məbləğində azadolma tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsinin 102.1-1-ci maddəsi.

**12. Bədii gimnastika üzrə 2023-cü ilin 15 yanvar tarixində Rusiyada keçirilən Dünya çempionatında təşkilatçı (Beynəlxalq Gimnastika Federasiyası) tərəfindən 10.000 dollar məbləğində mükafata layiq görülmüşəm. Bu ödənişdən vergi ödəmək öhdəliyim varmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən

pul şəklində verilən mükafatların dəyəri 50000 manatadək gəlir vergisindən azaddır.
Qeyd olunanlara əsasən, beynəlxalq yarışdan əldə etdiyiniz mükafatın tam dəyəri gəlir vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsinin 102.1.15-ci maddəsi.

**?**

**13. Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, şəhid ailələrinə münasibətdə vergi güzəşti nəzərdə tutulub. Atam 1-ci Qarabağ müharibəsi zamanı şəhid olub. Mən dövlət qulluqçusuyam. Bilmək istərdim, yuxarıda qeyd olunanlar nəzərə alınaraq, əməkhaqqıma münasibətdə hər hansı azadolma tətbiq ediləcəkmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 800 manat məbləğində azaldılır.
Bu səbəbdən, Sizin muzdlu işdən vergi tutulmalı olan aylıq gəlirinizə 800 manat məbləğində azadolma tətbiq ediləcəkdir.

**Əsas:** Vergi Məcəlləsinin 102.1-1-ci maddəsi.

**14. Atam "20 Yanvar" hadisələri zamanı həlak olub. Özüm dövlət qulluqçusuyam. Mənim aylıq əməkhaqqımdan tutulan vergilərlə bağlı hər hansı güzəşt əldə etmək hüququm varmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri, arvadları (ərləri) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır.
Qeyd olunanlara uyğun olaraq, əsas iş yerində əldə etdiyiniz aylıq muzdlu gəlirlərinizin 100 manat hissəsi gəlir vergisindən azaddır.
Əsas: Vergi Məcəlləsinin 102.4.2-ci maddəsi.

**15. Mən şəxsi istifadəm üçün ABŞ-dan avtomobil sifariş etmək niyyətindəyəm. Bilmək istəyirəm ki, istehsal tarixi 2017-ci il və mühərrikinin həcmi 2000 kubsantimetr olan hibrid avtomobilin idxalı ƏDV-yə cəlb edilirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 164.1.41-1 maddəsinə əsasən, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib. Eyni zamanda, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən azadolma müddəti 2026-cı il yanvarın 1-dək 1 il müddətinə uzadılıb.
Qeyd olunanlara əsasən, istehsal tarixi 3 ildən yuxarı olan hibrid avtomobillərin idxalı Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada 18 faiz dərəcə ilə ƏDV-yə cəlb edilir.

**Əsas:** Vergi Məcəlləsinin 164.1.41-1 maddəsi.

# 3 Ləğv prosesində olan kredit təşkilatlarının sabit vergi xərclərinin azaldılması

?

**16. "X bank" QSC məhkəmə qaydasında müflis elan olunub. Bu halda, mövcud vergi borclarına görə, müəssisənin əmlakları siyahıya alına bilərmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının əmlakı siyahıya alınmır.

**Əsas:** Vergi Məcəlləsinin 89.15-1-ci maddəsi.

?

**17. "X bank" ASC tərəfindən məhkəməyə təqdim edilmiş iflas haqqında iddia ərizəsinə əsasən, 15.01.2023-cü il tarixdə məhkəmə tərəfindən müflis elan olunma barədə qərar qəbul edilərək qüvvəyə minib. Bankın mülkiyyətində olan torpaq sahələrinə 2023-cü il üzrə torpaq vergisi öhdəliyi varmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, kredit təşkilatları məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müflis elan olunduğu halda, kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi ildən etibarən torpaq vergisini ödəməkdən azaddırlar.
Qeyd olunanlara əsasən, ASC 2023-cü il üzrə torpaq vergisini ödəməkdən azaddır.

**Əsas:** Vergi Məcəlləsinin 207.9-cu maddəsi.

# 4 Beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması

?

**18. Güzəştli vergi tutulan ölkədə qeydiyyatdan keçmiş hüquqi şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi tərəfindən əldə etdiyi gəlirlərdən bütün xərclər və vergilər çıxıldıqdan sonra qalan xalis mənfəət baş ofisə köçürülür. Nümayəndəlik tərəfindən güzəştli vergi tutulan ölkədə təsis olunmuş baş ofisə köçürülən məbləğdən Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən 10 faiz ödəmə mənbəyində vergi tutulmalıdırmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəəti həmin qeyri-rezidentə köçürüldükdə (verildikdə) güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə edilən həmin ödənişlər bu Məcəllənin 13.2.16.14-1-ci maddəsinin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir. Qeyd olunanlara əsasən, həmin ödənişlərdən Vergi Məcəlləsinin 125-1-ci maddəsinə əsasən ödəmə mənbəyində vergi tutma öhdəliyi yaranmır. Bununla yanaşı, Vergi Məcəlləsinin 126-cı maddəsinə görə, qeyri-rezidentin daimi nümayəndəliyindən mənfəət vergisindən əlavə olaraq, daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü (verdiyi) hər hansı məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur.

**Əsas:** Vergi Məcəlləsinin 13.2.16.14-1-ci, 125-1-ci və 126-cı maddələri.

**?**

**19. Mühasibi olduğum "Elit" QSC-də vergi orqanı tərəfindən səyyar vergi yoxlamasının təxirə salındığı barədə məlumat aldıq. Səbəb olaraq, vergi orqanı tərəfindən xarici dövlətə məlumat və sənədlərin alınması üçün müraciət edildiyi göstərilib və xarici dövlətdə aparılan yoxlama bitənədək yoxlama dayandırılıb. Belə hal mövcuddurmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması ilə əlaqədar müvafiq məlumatın və ya sənədlərin əldə edilməsi məqsədilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində vergi orqanının nümayəndəsinin xarici dövlətin ərazisində vergi yoxlamasında iştirak etməsi ilə bağlı xarici ölkənin səlahiyyətli orqanına müraciət edildikdə - xarici dövlətdə aparılan yoxlama yekunlaşanadək səyyar vergi yoxlaması 9 aydan gec olmamaqla dayandırılır.

**Əsas:** Vergi Məcəlləsinin 38.7.4-1-ci maddəsi.

?

**20. Transmilli şirkətlər qrupuna daxil olan və məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olan rezident müəssisə tərəfindən vergi orqanına qanunla müəyyən edilmiş hesabatın vaxtında təqdim olunmamasına görə maliyyə sanksiyası tətbiq edilirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 16.9-cu maddəsində göstərilən hesabatın müəyyən edilmiş müddətdə, formada və qaydada təqdim edilməməsinə görə vergi ödəyicisinə maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulub. Onu da qeyd edək ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, sözügedən maliyyə sanksiyasının məbləği 500 manatdan 10.000 manatadək artırılıb.

**Əsas:** Vergi Məcəlləsinin 57.1-2-ci maddəsi.

# 5 İnzibatçılıq tədbirlərinin təkmilləşdirilməsi

?

**21. Mən fərdi sahibkar kimi tikinti materiallarının idxalı və topdansatışı ilə məşğul oluram. Həmin fəaliyyətimi həyata keçirdiyim obyekti vergi orqanlarında uçota aldırmışam. Vergi Məcəlləsinin tələblərinə əsasən, idxal ediləcək mallar barədə malların gömrük nəzarətindən çıxdığı vaxtadək vergi orqanına məlumat verilməlidir. Bu baxımdan, Rusiyadan idxal etdiyim mallar barədə məlumat formasını vergi orqanlarına təqdim etməyim mütləqdirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir təsərrüfat subyekti (obyekti) olduğu halda, bu Məcəllənin 16.1.11-11-ci maddəsində nəzərdə tutulan məlumat forması vergi orqanına təqdim edilmir. Bu səbəbdən, idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) boşaldılmış hesab olunur.
Qeyd olunanlara əsasən, tərəfinizdən idxal edilən mallara görə Vergi Məcəlləsinin 16.1.11-11-ci maddəsinə uyğun olaraq məlumat forması təqdim edilmir.

**Əsas:** Vergi Məcəlləsinin 16.1.11-11-ci maddəsi.

**22. Mən vergi orqanında uçota alınmaqla fərdi qaydada vəkillik fəaliyyəti ilə məşğul oluram və fəaliyyətim ilə əlaqədar Vəkillər Kollegiyasına vaxtaşırı ödənişlər edirəm. Həmin ödənişlər müqabilində Kollegiya tərəfindən mənə elektron qaimə-faktura təqdim edilməlidirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına vəkillər və vəkil qurumları tərəfindən edilən ödənişlər üzrə elektron qaimə-faktura təqdim edilmir.
Bu baxımdan, tərəfinizdən Vəkillər Kollegiyasına aparılan ödənişlərə görə elektron qaimə-fakturanın təqdim edilməsi Vergi Məcəlləsində nəzərdə tutulmayıb.

**Əsas:** Vergi Məcəlləsinin 16.1.11-6.5-ci maddəsi.

**23. “A sığorta” ASC hər rüb hüquqi şəxslərin sığortaladığı əsas vəsaitləri barədə məlumatları vergi orqanına təqdim edir. Bu tələb fərdi sahibkarların sığortalanmış əsas vəsaitlərinə münasibətdə də mövcuddurmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 16.6-cı maddəsinə 1 yanvar 2023-cü ildən edilmiş dəyişikliyə əsasən, sığortaçılar tərəfindən hüquqi şəxslərə, onların filial və nümayəndəlikləri ilə yanaşı, fərdi sahibkarlara məxsus sığortalanmış əsas vəsaitlər barədə məlumat da rüb bitdikdən sonra növbəti ayın 20-dək müəyyən edilmiş müvafiq formada vergi orqanına təqdim olunur.
Qeyd olunanlara əsasən, 1 yanvar 2023-cü ildən etibarən əsas vəsaitləri sığortalanan fərdi sahibkar olduğu halda, sığortaçı

tərəfindən sığortalanmış həmin əsas vəsaitlər barədə məlumatlar rüb bitdikdən sonra növbəti ayın 20-dək vergi orqanına təqdim edilməlidir.

**Əsas:** Vergi Məcəlləsinin 16.6-cı maddəsi.

?

**24. Mən stomatoloji xidmət alıram və əldə etdiyim tibbi xidmət üçün ödədiyim məbləğlərə görə ƏDV-nin geri qaytarılması hüququmdan istifadə etmək istəyirəm. Bu baxımdan, fərdi qaydada stomatoloji fəaliyyət göstərən diş həkimi tərəfindən mənə göstərilən tibbi xidmətlərə görə nəzarət-kassa aparatının çeki təqdim edilməlidirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əhali ilə pul hesablaşmalarının aparılması nəzarət-kassa aparatı tətbiq edilməklə həyata keçirilməlidir.
Qeyd olunanlara əsasən, fərdi qaydada göstərilən stomatoloji xidmətlərə görə diş həkimi tərəfindən Sizə nəzarət-kassa aparatı çeki təqdim edilməlidir və stomatoloq ƏDV qeydiyyatında olduğu halda, əldə etdiyiniz tibbi xidmətlərə görə ƏDV-nin geri qaytarılması həyata keçirilə bilər.

**Əsas:** Vergi Məcəlləsinin 16.1.8-ci maddəsi.

## ? 25. Fərdi sahibkar olaraq vergi orqanına ərizə ilə müraciət edərək uçota alınmışam. Bank hesabı açmaq üçün nə etməliyəm?

Bildiririk ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, vergi ödəyiciləri vergi uçotuna alındıqdan sonra hesab açmaq üçün bank hesablarını açmaq və aparmaq hüququ olan kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna (bundan sonra - bank əməliyyatları aparan şəxslərə) müraciət etdikdə bank əməliyyatları aparan şəxslər vergi ödəyicilərinə hesablar açır (qanunla hesabın açılmasından imtinaya əsas verən hallar nəzərə alınmaqla) və açılmış hesabların (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) vergi orqanında qeydiyyata alınması üçün müvafiq məlumatı hesab açıldığı tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərir.
Lakin qeyd olunan dəyişikliklər 1 oktyabr 2023-cü il tarixdən qüvvəyə minəcəkdir və həmin tarixədək vergi ödəyiciləri tərəfindən bank hesablarının açılması əvvəlki qaydada vergi orqanlarından şəhadətnamə-dublikat əldə edilməklə həyata keçirilir.
Qeyd olunanlara əsasən, 2023-cü il oktyabrın 1-dən vergi ödəyicisi bank hesabı açmaq üçün vergi orqanına ərizə təqdim etmir və birbaşa olaraq bank əməliyyatları aparan şəxslərə müraciət edir.

**Əsas:** Vergi Məcəlləsinin 35.1-ci maddəsi.

**26. "Transport" QSC-nin Rusiyada əldə etdiyi gəlirləri barədə həmin ölkənin səlahiyyətli orqanından məlumatlar daxil olub. Vergi orqanı tərəfindən 2022-ci ilin mənfəət vergisi bəyannaməsi üzrə 2023-cü ilin fevral ayından başlanan kameral vergi yoxlaması 2 aydır davam edir, yəni 30 iş günü çoxdan keçib. Bu vaxta qədər yoxlamanın davam etməsi doğrudurmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, xaricdən əldə edilən gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda, kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən 90 iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra xaricdən əldə olunan məlumatlar üzrə kameral vergi yoxlaması keçirilə bilməz.
Qeyd olunanlara əsasən, QSC-nin xaricdən əldə edilən gəlirləri üzrə xarici dövlətin səlahiyyətli orqanından müvafiq məlumatlar daxil olduqda kameral vergi yoxlaması məlumatlar daxil olduğu tarixdən 90 iş günü müddətində keçirilə bilər.

**Əsas:** Vergi Məcəlləsinin 37.2-ci maddəsi.

?

**27. Kiçik mağazada fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyicisiyəm. Səhhətimlə əlaqədar son iki rüb ərzində heç bir fəaliyyətim və gəlirim olmadığı səbəbindən müvafiq hesabatları vergi orqanına təqdim etməmişəm. Hesabatın vaxtında təqdim edilməməsi barədə vergi orqanının xəbərdarlığı elektron kabinetimə daxil olub. Boş hesabatları indi təqdim etsəm mənə maliyyə sanksiyası tətbiq olunacaqmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, hesabat dövrü üzrə vergi tutulan əməliyyatlar aparan vergi ödəyicisi tərəfindən vergi hesabatının təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
Qeyd olunanlara əsasən, tərəfinizdən vergi tutulan əməliyyatlar aparılmadığı halda, müvafiq rüblər üzrə təqdim ediləcək hesabatların vaxtında təqdim olunmamasına görə maliyyə sanksiyasının tətbiq edilməsi Vergi Məcəlləsində nəzərdə tutulmayıb.

**Əsas:** Vergi Məcəlləsinin 57.1-ci maddəsi.

**28. “Şərik” MMC-nin ləğvi ilə əlaqədar cəmiyyətə məxsus bank hesabının bağlanması üçün “Kapital bank” ASC-yə müraciət olunub. Bilmək istəyirik ki, bank hesabının bağlanması haqqında neçə gün ərzində bank tərəfindən vergi orqanına məlumat təqdim ediləcəkdir?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicilərinə məxsus hesablar bank əməliyyatı aparan şəxslər tərəfindən bağlandıqda həmin şəxslər bu barədə məlumatı hesabın bağlandığı tarixdən 1 iş günü müddətində elektron qaydada Dövlət Vergi Xidmətinə göndərirlər.

**Əsas:** Vergi Məcəlləsinin 35.6-cı maddəsi.

**29. ƏDV qeydiyyatında olan müəssisə digər ƏDV ödəyicisindən elektron qaimə-faktura əsasında alınmış mallar üzrə malların dəyərinin ƏDV-siz hissəsi ödənildikdən sonra 1 iş günü müddətində ƏDV məbləği qarşı tərəfin ƏDV depozit hesabına köçürülüb. Vergi nəzarəti tədbiri keçirilən zaman ödəmələrin bu cür aparılması müəssisəyə maliyyə sanksiyasının tətbiq edilməsinə əsas verirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş 58.6-cı maddəsinin yeni redaksiyasına əsasən, bu Məcəllənin 175.1.3-cü maddəsinə müvafiq olaraq, həmin Məcəllənin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən 1 (bir) iş günü

müddətində ƏDV məbləğinin ödənilməməsinə görə vergi ödəyicisinə vaxtında ödənilməmiş ƏDV məbləğinin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.
Qeyd olunanlara əsasən, müəssisə tərəfindən mallar alınarkən ƏDV məbləği malların dəyəri ödənilən gündən bir iş günü müddətində ƏDV depozit hesabına ödənildiyindən, müəssisəyə maliyyə sanksiyası tətbiq edilmir.

**Əsas:** Vergi Məcəlləsinin 58.6-cı maddəsi.

?

**30. 2023-cü ilin yanvar ayında “Ramdent” stomatoloji kabinetdə diş əkilməsinə görə 1000 manat məbləğində xidmət haqqını nağd şəkildə ödədim. Mən kabineti tərk etməmiş vergi əməkdaşları oraya daxil olaraq stomatoloq həkimə nağd ödənişin alınmasına görə cərimə yazdılar. Soruşmaq istəyirəm ki, ödənişi düz etmədim ki, həkimə cərimə yazıldı?**

Bildiririk ki, 1 yanvar 2023-cü ildən “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanununun 3.4.12-ci maddəsində edilmiş dəyişikliyə əsasən, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər nağdsız ödənilməlidir. Eyni zamanda, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Qanunun 3.4.12-ci maddəsinin tələblərini pozmaqla tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisəsinə və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə qanunsuz aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Qeyd olunanlara əsasən, aldığınız tibbi xidmətin dəyəri beş yüz manatdan artıq olduğu üçün ödənişlər nağdsız qaydada edilməli idi və bu halda xidmətin dəyərini nağd qaydada qəbul edən stomatoloqa maliyyə sanksiyasının tətbiqi qanunauyğundur.

**Əsas:** Vergi Məcəlləsinin 58.7-1.10-cu maddəsi və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.4.12-ci maddəsi.

?

**31. Fərdi sahibkar elektron ticarət qaydasında telefon aksesuarlarının satışı fəaliyyətini həyata keçirir. Sifariş əsasında satılmış telefon aksesuarı alıcıya anbardan təhvil verildiyi halda fərdi sahibkar tərəfindən vergi qanunvericiliyinin tələbləri pozulurmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, elektron ticarət qaydasında satılan malların sifariş edilərək pərakəndə satış ticarət obyektlərinə məxsus anbarlardan təqdim edilməsi Vergi Məcəlləsinin 58.13-cü maddəsinə görə maliyyə sanksiyasının tətbiq olunmasına əsas vermir.
Qeyd olunanlara əsasən, elektron ticarət qaydasında satılmış telefon aksesuarının fərdi sahibkarın pərakəndə satış ticarət obyektinə məxsus anbardan təqdim edilməsi zamanı satıcıya maliyyə sanksiyası tətbiq olunmur.

**Əsas:** Vergi Məcəlləsinin 58.13-cü maddəsi.

?

**32. Vergi orqanı tərəfindən “Qatar” MMC-yə hesablanmış 1000 manat məbləğində vergi borcunun 105 faizi həcmində vəsaitin cəmiyyətin bank hesabında dondurulması haqqında banka sərəncam göndərilib. Cəmiyyət vergi orqanının hesablaması ilə razılaşaraq vergi borcunun ödənilməsi üçün bank hesabında olan məbləğin dövlət büdcəsinə alınmasını istəyir. Bunun üçün cəmiyyət dondurulmalı sərəncamın icrası üçün banka ödəniş tapşırığı təqdim edə bilərmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 (yüz beş) faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncam olduqda vergi ödəyicisi dondurulmuş pul vəsaitinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslərə ödəniş tapşırığı təqdim edə bilər və həmin şəxslər vergi ödəyicisinin ödəniş tapşırığında göstərilən məbləğdə pul vəsaitinin dövlət büdcəsinə köçürülməsini təmin edirlər.

**Əsas:** Vergi Məcəlləsinin 65.8-1-ci maddəsi.

?

**33. Fərid Əliyevə məxsus obyekti icarəyə götürən müəssisə tərəfindən həmin əsas vəsait balansa götürülməyib. İcarə müqaviləsinə əsasən, müəssisə tərəfindən icarə haqqı ilə əvəzləşdirilmədən obyektin bərpası üçün 400 manat təmir xərci çəkilib və icarə haqqı ödənişi zamanı nəzərə alınmayıb. Bu halda müəssisə tərəfindən faktiki çəkilmiş təmir xərcləri hansı formada gəlirdən çıxılır?**

Bildiririk ki, Vergi Məcəlləsinin 115.6-1-ci maddəsinə əsasən, icarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə bu Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur.
Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, təqvim ilinin sonuna bu maddə ilə müəyyən edilmiş qaydada hər bir kateqoriya üzrə kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduqda, həmin məbləğ gəlirdən çıxılır.
Qeyd olunanlara əsasən, müəssisə tərəfindən icarəyə götürülmüş daşınmaz əmlaka görə çəkilmiş və kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduğundan gəlirdən faktiki çəkilmiş təmir xərci çıxılır.

**Əsas:** Vergi Məcəlləsinin 115.6-1-ci maddəsi.

**34. ƏDV qeydiyyatında olan “Star” MMC ləğv edilməsi üçün vergi orqanına müraciət edib. Lakin MMC-nin sahibliyində hər hansı mal qalığı mövcud deyil. Eyni zamanda, cəmiyyətin əvvəlki dövrlər üzrə topdansatış fəaliyyəti ilə bağlı debitor borcları vardır. Belə olan halda, ƏDV qeydiyyatının ləğvi zamanı cəmiyyətin ƏDV öhdəliyi yaranacaqmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 159.6-cı maddəsinə əsasən, vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir. Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, vergi tutulan əməliyyatın (o cümlədən malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə) vaxtı ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) vergi tutulan əməliyyatın aparıldığı vaxt sayılır.
Qeyd olunanlara əsasən, əvvəlki dövrlər üzrə təqdim edilən, lakin dəyəri ödənilməyən mallar üzrə yaranan debitor borclar müəssisə ləğv edilən zaman malların təqdim olunması kimi qiymətləndirilir və ƏDV öhdəliyi yaranır.

**Əsas:** Vergi Məcəlləsinin 159.6-cı və 166.3-cü maddələri.

**35. "Yardım" MMC tərəfindən tikilən modul tipli xəstəxana əvəzsiz olaraq Səhiyyə Nazirliyinə verilir. ƏDV qeydiyyatında olan MMC həmin xəstəxananın tikilməsi zamanı ödədiyi ƏDV məbləğlərini əvəzləşdirə bilərmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 160.4-cü maddəsinə əsasən, hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakların, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi vergi tutulan əməliyyat sayılmır. Vergi Məcəlləsinin 175.6-cı maddəsinə görə isə ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir. Lakin Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən Vergi Məcəlləsinin 175.6-cı maddəsində edilmiş dəyişikliklə sözügedən maddədə Vergi Məcəlləsinin 160.4-cü maddəsi istisna edilib.
Qeyd olunanlara əsasən, MMC tərəfindən modul tipli xəstəxananın dövlət orqanına əvəzsiz təqdim edilməsi ƏDV məqsədləri üçün vergi tutulan əməliyyat sayılmır və həmin xəstəxananın tikilməsi ilə əlaqədar mallar (işlər, xidmətlər) alınarkən ödənilmiş ƏDV məbləği əvəzləşdirilir.

**Əsas:** Vergi Məcəlləsinin 160.4-cü və 175.6-cı maddələri.

?

**36. Bildiyimiz kimi, 1 yanvar 2023-cü ildən vergi ödəyiciləri tərəfindən bank hesabı açılarkən şəhadətnamə-dublikat tələb edilmir və banklar vergi ödəyicisinə hesablar açan zaman həmin hesabların vergi orqanında qeydiyyata alınması üçün hesab açıldığı tarixdən 1 iş günü müddətində vergi orqanına elektron məlumat təqdim etməlidir. Həmin məlumat təqdim edilmədiyi halda, banka hər hansı maliyyə sanksiyası nəzərdə tutulubmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisinə hesablar açıldıqda həmin hesabların vergi orqanında qeydiyyata alınması üçün elektron məlumatın bu Məcəllənin 35.1-ci maddəsinə uyğun olaraq vergi orqanına təqdim edilməməsinə görə kredit təşkilatları və bank əməliyyatlarını aparan şəxslərə hər açılmış hesab üzrə 400 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsinin 60.1.1-ci maddəsi.

**37. Fərdi sahibkar kimi ƏDV qeydiyyatındayam. 2023-cü ilin yanvar ayının 8-də digər müəssisədən elektron qaimə-faktura əsasında mal almışam. Həmin malların dəyərini ödədiyim gün ƏDV depozit hesabında vəsait olmadığından ƏDV məbləğini iki iş günündən sonra nağdsız qaydada qarşı tərəfin ƏDV depozit hesabına ödədim. Bu halda qanunvericiliyin tələbi pozulurmu?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən bir iş günü müddətində ƏDV-nin məbləği bu Məcəllə ilə və Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada ödənilməlidir.
Qeyd olunanlara əsasən, tərəfinizdən elektron qaimə-faktura üzrə alınmış malların dəyəri ödənilən gündən iki iş günü müddətində ƏDV-nin məbləği ödənildiyindən, vergi qanunvericiliyinin tələbləri pozulub və Vergi Məcəlləsinin 58.6-cı maddəsinə uyğun olaraq maliyyə sanskiyası tətbiq ediləcəkdir.

**Əsas:** Vergi Məcəlləsinin 58.6-cı və 175.1.3-cü maddələri.

**38. Müəssisəmiz yeni yaradılıb və tütün istehsalı ilə məşğul olmağı planlaşdırır. İstehsal olunan tütün üçün aksiz vergisinin dərəcələrində hər hansı dəyişiklik gözlənilirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, qəlyan üçün tütünlər və tütün əvəzləyicilərinin, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlərin, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlərin, çeynənilən və ya buruna çəkilən tütünlərin hər kiloqramına görə aksiz vergisi 30 manatdan 22 manata endirilib.

**Əsas:** Vergi Məcəlləsinin 190.3.14-cü maddəsi.

**39. "STUDY FUN" MMC ofis ləvazimatlarının pərakəndə satışını həyata keçirir və sadələşdirilmiş verginin ödəyicisidir. Şirkət 2023-cü ilin 1-ci rübündə nəzarət-kassa aparatı vasitəsilə 11.000 manat, 5.000 manat məbləğində isə elektron qaimə-faktura ilə fərdi sahibkara satış həyata keçirib. Bu halda şirkət sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnu saxlayırmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 218.6.1-cı maddəsinə əsasən, bu Məcəllənin 218.5.9-cu maddəsinin müddəalarından asılı olmayaraq, pərakəndə satış qaydasında malların təqdim edilməsini həyata keçirən vergi ödəyicisi eyni zamanda topdansatış qaydasında malların satışını həyata keçirdikdə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi

ümumi ticarət əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda, sadələşdirilmiş vergi metodunu tətbiq etmək hüququ saxlanılır.
Eyni zamanda, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 218.6.1-ci və 218.6.2-ci maddələrində göstərilən şərtlər ödənilmədikdə, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.
Qeyd olunanlara əsasən, pərakəndə satış fəaliyyəti göstərən müəssisənin rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatlarının həcmi ümumi əməliyyatların həcminin 30 faizindən çox olduğundan, sadələşdirilmiş vergi metodunu tətbiq etmək hüququnu itirir və 2023-cü ilin ikinci rübündən etibarən mənfəət vergisinin ödəyicisi kimi fəaliyyət göstərməlidir.

**Əsas:** Vergi Məcəlləsinin 218.6.2-ci və 218.7-ci maddələri.

?

**40. "Kapital Bank" ASC-nin Nərimanov filialının ləğvi ilə əlaqədar müəssisəmizin həmin filialda olan bank hesabları digər filiala köçürülüb. Bu zaman hesabın bağlanılması və digər filialda yeni hesabın açılması üçün banka təkrar müraciət olunmalıdırmı?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2023-cü ildən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicilərinə məxsus hesabların bank əməliyyatı aparan şəxslərin özü, filial və ya struktur bölmələri arasında köçürülməsi zamanı bank əməliyyatı aparan şəxslər köçürülən hesablar barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada  məlumatı hesabın köçürüldüyü tarixdən 1 iş

günü müddətində elektron qaydada Dövlət Vergi Xidmətinə göndərir.
Qeyd olunanlara əsasən, müəssisə tərəfindən ləğv olunan filialdakı hesabının bağlanması və hesabın köçürüləcəyi digər filialda hesabın açılması üçün banka təkrar müraciət edilmir, bank əməliyyatı aparan şəxsin özü tərəfindən hesabın köçürülməsi əməliyyatı həyata keçirilir və bu barədə məlumat hesabın köçürüldüyü tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərilir.

**Əsas:** Vergi Məcəlləsinin 35.5-ci maddəsi.

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
**www.taxes.gov.az**